


# Parlaq gələcəyimiz naminə

## 15 İyun - Milli Qurtuluş Günü

## 22 il əvvəlin sədaları...

Hər ilin bu günləri hamının gözlərindən daha çox sevinc, simasından daha aydın fərəh sezilir. 15 İyun günü isə bu hisslər daha da konkretləşir, parlaqlaşır: axı, həmin tarix Milli Qurtuluş Günüdür!.. 2015-ci ilin 15 iyunu məxsusi bir olaya – siyasi-mədəni-mənəvi tarix obrazına çevrilib! Bəli, Birinci Avropa Oyunlarının ilk dəfə məhz respublikamızda keçirilməsi, açılış mərasiminin fövqəladə formada təqdimatı, medalları sıralayan idmançılarımızın öz yüksək nəticələrilə ən sivil qitənin aparıcı ölkələrini qabaqlaması, turistlərin sürətli inkişafımızı, paytaxtımızın gözəlliyini heyranlıqla izləyib, qonaqpərvərliyimizə vurulmaları...

Bunların özü də həmin hadisənin – Milli Qurtuluş Günündən başlayan tarixin məntiqi nəticəsidir...

Doğrudur, bundan öncə də Azərbaycan beynəlxalq miqyaslı neçə-neçə mötəbər tədbirə layiqincə ev sahibliyi edib, dünyada ölkəmizin tanıdılması istiqamətində mühüm layihələrə imza atıb. Amma düşünürük ki, Birinci Avropa Oyunları - istər bu böyük idman tədbirinə qoşulanların, istərsə də bununla əlaqədar respublikamıza təşrif gətirən xarici ölkə rəhbərləri, mətbuat nümayəndələri və azarkeşlərin sayına görə onların hamısının fövqündə dayanır. Təbii ki, hələ bu da son hədd deyil. Bütün bunlar - xüsusi qürur, iftixar və minnətdarlıq duyğusu ilə etiraf etməliyik ki, müstəqilliyimizin, ölkəmizin tərəqqisi sahəsində respublika rəhbərinin həyata keçirdiyi uğurlu siyasətin bəhrələridir.

...1993-cü il iyunun 4-də baş verən məlum Gəncə hadisələri ölkəni xaosa çevirmişdi. Vəziyyət nəzarətdən çıxmış və bu böhranlı, ağır şəraitdə ölkə vətəndaşları yeganə çıxış yolunu yenə öz müdrik rəhbərinin – ümummilli lider Heydər Əliyevin hakimiyyət sükanı arxasına keçməsində görmüşdü.

**“Bu taleyüklü sınaq anında xalqın çağırışına səs verən, dövlətin gələcək taleyinə biganə qalmayan böyük strateq Heydər Əliyev Bakıya dönərək respublikada yaranmış hakimiyyət böhranının aradan qaldırılması istiqamətində əməli fəaliyyətə başladı. Ümummilli liderin bir qrup ziyalı ilə Gəncəyə səfər etməsi və heç bir riskdən çəkinməyərək silahlanmış qüvvələrlə danışıqlar aparması vətəndaş müharibəsi təhlükəsinin qarşısının alınmasında mühüm addım oldu.**

Bundan bir neçə gün sonra – iyunun 15-də isə ulu öndər parlamentdə səslənən təkidli xahişləri, ən əsası, xalqın istəyini nəzərə alaraq Azərbaycan Respublikası Ali Sovetinin sədri vəzifəsinə seçilməsinə razılıq verdi. Bu tarixi hadisə respublika həyatında xaos və anarxiyadan qurtuluşa doğru yeni mərhələnin başlanğıcı oldu. Beləliklə də, 15 iyun Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi yazıldı.

Ulu öndərin Ali Sovetin sədri seçilməsi həm də Azərbaycanda mütərəqqi parlamentarizm ənənələrinin formalaşmasını təmin etdi. Heydər Əliyev fəaliyyətə parlamentin cəmiyyətdəki nüfuzunun sağlamlaşdırılması tədbirləri ilə başladı, yüksək idarəçilik keyfiyyətləri sayəsində ali qanunverici orqanda xoşagəlməz siyasi çəkişmələrin, qeyri-etik davranışların qarşısını aldı. Müzakirə və diskussiyaların sivil, demokratik meyarlar çərçivəsində aparılması üçün şəxsi nümunə göstərən ümummilli lider parlament idarəçiliyinə yeni ruh və müasirlik gətirdi. Milli Məclisin iclasları, mətbuat konfransları, respublika əhəmiyyətli müşavirələr televiziya ilə birbaşa yayımlandı.

**“Millət vəkilləri 15 iyun tarixinin təqvimə Azərbaycanın Qurtuluş günü kimi salınması təklifi ilə çıxış etdilər. Milli Məclis bu təklifi bəyəndi və o vaxtdan Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Milli Qurtuluş Günü kimi qeyd edilir.**

Bu gün Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən, millətimizin və dövlətimizin parlaq gələcəyi naminə mətin və qəti addımlar atan, düşünülmüş, tarazlı daxili və xarici siyasət xətti yürüdən Prezident İlham Əliyevin çoxsaylı siyasi-diplomatik fəaliyyəti, respublikamızın siyasi-iqtisadi müstəqilliyinin daha da möhkəmlənməsi istiqamətində həyata keçirdiyi mühüm tədbirlər, qəbul etdiyi strateji proqramlar xalqımızın xoşbəxt, firavan sabahına etibar, müstəqilliyimizin əbədiliyinə inamıdır... ◆

